**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**5718.01 – "Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı)" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında ixtisas imtahanı**

# PROQRAMI

**Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Elmi Şurasının qərarı ilə tövsiyə edilmişdir.**

**(2026-ci il 31 mart 5 saylı protokol)**

**BAKI – 2026**

Tərtib edənlər: f.ü.e.d.prof. A.Ş.Qasımova

f.ü.f.d.dos.K.Ə.Məmmədova

f.ü.f.d.K.İ.Eyvazova

Elmi redaktor: f.ü.e.d.prof.V.A.Qaradağlı

Rəyçi : f.ü.f.d. Mütəllimova Ç.T.

# İZAHAT VƏRƏQİ

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrası tərəfindən 5718.01 – Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı) ixtisası fəlsəfə doktorluğu proqramı üzrə təhsil alan doktorantlar üçün ixtisas imtahanının keçirilməsi məqsədilə hazırlanmış bu proqram ərəb ədəbiyyatı sahəsində əldə edilmiş elmi-nəzəri biliklərin və tədqiqat bacarıqlarının qiymətləndirilməsinə xidmət edir.

Proqramın əsas məqsədi doktorantların ərəb ədəbiyyatının tarixi inkişaf mərhələləri, ədəbi cərəyanları, janr sistemi, aparıcı nümayəndələri və ədəbi-nəzəri fikrin əsas istiqamətləri üzrə dərin və sistemli biliklərini, eləcə də müstəqil elmi təhlil, ümumiləşdirmə və interpretasiya qabiliyyətlərini müəyyənləşdirməkdən ibarətdir.

Ərəb ədəbiyyatı dünya ədəbiyyatı tarixində mühüm yer tutan, çoxəsrlik inkişaf yolu keçmiş mürəkkəb və çoxşaxəli ədəbi sistemdir. Bu ədəbiyyat cahiliyyə dövrünün şifahi poetik ənənələrindən başlayaraq İslamın meydana gəlməsi ilə yeni ideya-məzmun keyfiyyətləri qazanmış, klassik dövrdə – xüsusilə Əməvilər və Abbasilər mərhələsində yüksək inkişaf səviyyəsinə çatmış, Əndəlüs mühitində isə Şərq və Qərb ədəbi ənənələrinin sintezi nəticəsində yeni estetik xüsusiyyətlər əldə etmişdir. Sonrakı dövrlərdə ictimai-siyasi və mədəni transformasiyalarla əlaqədar olaraq ərəb ədəbiyyatı yeni inkişaf istiqamətləri qazanmış, XIX əsrdən etibarən ən-Nəhda hərəkatı ilə müasir ədəbi proseslərin formalaşmasına zəmin yaratmışdır.

Proqram ərəb ədəbiyyatının klassik və müasir mərhələlərini, əsas ədəbi hadisə və prosesləri, janrların inkişaf dinamikasını, eləcə də ədəbi tənqid və nəzəri fikrin formalaşma xüsusiyyətlərini kompleks şəkildə əhatə edir. Bu çərçivədə doktorantların ədəbi mətnləri elmi metodlar əsasında təhlil etmək, müxtəlif dövrlərin ədəbi xüsusiyyətlərini müqayisəli şəkildə şərh etmək və ədəbi-nəzəri problemlərə tənqidi yanaşma nümayiş etdirmək bacarıqlarının qiymətləndirilməsi nəzərdə tutulur.

İxtisas imtahanı zamanı doktorantlardan ərəb ədəbiyyatının əsas inkişaf mərhələləri, aparıcı ədəbi cərəyanlar, klassik və müasir dövrün görkəmli nümayəndələrinin yaradıcılığı, eləcə də ərəb ədəbi tənqidi və poetikası ilə bağlı mühüm nəzəri məsələlər üzrə sistemli və əsaslandırılmış bilik nümayiş etdirmək tələb olunur. Bununla yanaşı, onların elmi terminologiyadan düzgün istifadə etmək, ədəbi faktları ümumiləşdirmək və nəticələri elmi üslubda təqdim etmək bacarıqları da qiymətləndirilir.

**PROQRAMIN MƏZMUNU**

Proqram ərəb ədəbiyyatının tarixi inkişaf mərhələlərini, bu mərhələlərdə formalaşan əsas ədəbi istiqamətləri, janr sistemini, aparıcı nümayəndələrin yaradıcılığını və ədəbi-nəzəri fikrin inkişaf xüsusiyyətlərini əhatə edir. Proqram çərçivəsində ərəb ədəbiyyatının həm klassik, həm də müasir dövrləri sistemli şəkildə öyrənilir və namizədlərin bu sahədə kompleks elmi hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi nəzərdə tutulur.

**Ərəb ədəbiyyatı barədə ümumi məlumat.**

Ərəb ədəbiyyatının əsas mərhələləri:

- Cahiliyyət dövrü
- İlkin islam dövrü
- Əməvilər dövrü
- Abbasilər dövrü: yeniləşmə mərhələsi, klassisizm mərhələsi, ədəbi sintez mərhələsi.
- Durğunluq dövrü
- Maarifçilik və nəhda dövrü
- Müasir dövr

Ərəb ədəbiyyatının əsas növləri və janrları. Ərəb ədəbiyyatında janr anlayışının bir məzmun kateqoriyası kimi səciyyəvi cəhətləri.

Müasir ədəbi prosesdə əsas növlər və janrlar.

**Cahiliyyət dövründə ədəbi proses.**

Nəzmin nəsri üstələməsi və ədəbiyyatın şifahi şəkildə yayılması. Şairin cəmiyyətdəki statusu. Müəlləqələrin məzmun, üslub və xüsusiyyətləri. Məşhur müəlləqə müəllifləri.

**Cahiliyyət dövründə saray şairləri.**

Nabiğə əz-Zubyani şair və ədəbi tənqidçi kimi. Əl-Əşənin cəmiyyətdəki nüfuzlu mövqeyi.

Ayrı-ayrı dini-ideoloji cərəyanlar və ədəbiyyat. Hənifilik. Cahiliyyət dövrünün görkəmli şəxsiyyətləri. Loğman ibn Ad və onun «Məcəllə» adlanan kitabı. Loğmanın mümkün prototipləri: Qədim Yunan hökmdarlarının Azərbaycana səfəri və burada türklərlə qarşılaşması (e.ə. XIV və VII əsrlər).

**İlkin İslam dövründə ədəbiyyat.**

Qurani- Kərimin nazil olması, dil və üslub xüsusiyyətləri. Quran Məhəmməd peyğəmbərin möcüzəsi kimi (İcazul-Quran). İlk müfəssirlərin Quranın şərhində cahiliyyət dövrünün poetik nümunələrinə müraciət etməsi. Qurani-Kərimin tarix, ədəbiyyatşünaslıq, dilçilik, orfoqrafiya, leksikologiya, şərhçilik və s. elmlərin inkişafına təkan verməsi. Hədislərin toplanması və yayılması. Mö'təbər hədis topluları. Hədislərin əxlaqi-didaktik əhəmiyyəti. Dil və üslub xüsusiyyətləri. Qurani-Kərimdə və hədislərdə şairlərə və söz sənətinə münasibət. İlkin islam dövründə poeziyanın durumu. İslam şairləri: Həssan ibn Sabit, Kəb ibn Zuheyr, Abdulla ibn Revaha, Kəb ibn Malik.

İlkin İslam dövründə islama zidd şairlər və onların aqibəti. Xüləfaur-Raşidinin poeziyaya münasibəti. Onların ədəbi yaradıcılığı. Həzrəti Əlinin «Nəhcül-bəlağa» əsəri.

**Əməvi xəlifələri və poeziya.**

Şair xəlifələr: II Yezid, Valid ibn Yezid və b.

Əməvilər dövründə poeziyanın sürətli inkişafının səbəbləri. Poeziya siyasi mübarizə vasitəsi kimi. Şiə, xarici, zubeyri və s. şairlər.

**Nəqaid şeiri.**

Nəqaid şeiri qəbəli həcvın inkişafında yeni mərhələ kimi. Nəqaidin sinkretik şeir növü kimi özündə fəxr, mədh və s. ünsürləri cəmləməsi. Görkəmli nəqaid ustaları Fərəzdək, Cərir və Əxtal.

**Əməvilər dövründə məhəbbət poeziyası.**

Əməvilər dövründə məhəbbət poeziyasının inkişaf istiqamətləri. Üzri qəzəlin yaranması və inkişafı. Uzra qəbiləsi və üzri şairlərlə bağlı məhəbbət dastanlarının formalaşması prosesi.

Ərəb ədəbiyyatında şairlərin dastan və əsatir qəhrəmanlarına çevrilməsi prosesinə ümumi bir nəzər. İmrul-Qeys, Muraqqaş əl-Əkbər, Tərəfə ibn əl-Əbd, Əntərə ibn Şəddad və b. ətrafında yaranan dastan və əfsanələr. Qeys ibn Mülavvah və «Leyli və Məcnun» poemaları.

Görkəmli üzri şairləri. Cəmil ibn Məmmər, Kuseyyir Uzza, Leyla əl-Əxyəlliyyə və b. Üzri poeziyasının poetik arsenalı müsəlman sufi poeziyasının bədii obrazlarının əsas qaynağı kimi. Üzri poeziyası və ərəb ədəbiyyatında məhəbbət mövzusunda yazılmış nəsr əsərləri: Əl-Qari və «Masariul-Uşşaq» əsəri. İbn Həzmin «Tavqul-haməmə» əsəri.

Hadari qəzəl əmavilər dövründə məhəbbət poeziyasının digər mühüm qolu kimi. Ömər ibn Rabiə və əl-Vəddah.

**Xütbə və risalə**

Əməvilər dövründə ərəb nəsrinin iki qolu - xütbələr və risalələr. Xütbələrin yaranma və inkişafına ümumi baxış. Cahiliyyət dövründə xütbələr. Kahin sədcləri. İlkin islam dövründə xütbə. Məhəmməd peyğəmbərin vida xütbəsi. Xütbələr siyasi mübarizə vasitəsi kimi. Xarici, şiə, zubeyri xətiblər. Əməvilər siyasətinin tərəfdarı olan xətiblər: Həccac ibn Yusif və Ziyad ibn Əbihi.

İslamın yaranması dövründə katiblik sənəti. Quran katibləri: Zeyd ibn Sabit. Əməvilər dövründə katiblik sənəti. Əbdül-Həmid əl-Katib.

**Abbasilər dövründə ədəbiyyatın kəsb etdiyi yeniliklər.**

Bəşşar ibn Burd ilk yenilikçi şair kimi. Bəşşar poeziyasında ənənəvi motivlərin yeniliklə çuğlaşması.

Əbul-Ətahiyə və zuhdiyyə şeiri. Zuhdiyyə şeirinin inkişaf tarixinə qısa bir nəzər. Cahiliyyət şeirində zuhdiyyə motivləri. Zuheyr ibn Əbi Sulmə zuhdiyyə şairi kimi.

**Əbu Nuvas**

Əbu Nuvasın həyatı və poeziyası. Əbu Nuvas xəmriyyə ustadı kimi. Ərəb şerində xəmriyyələrin yaranma və inkişafına ümumi bir nəzər: əl-Əşə, Əmr ibn Gülsüm, əl-Əxtal və başqalarının xəmriyyə şeirləri. Əbu-Nuvas xəmriyyələrinin səciyyəvi cəhətləri.

**Müslim ibn əl-Valıd və Dibil əl-Xuzai**

Müslim ibn əl-Valıdın həyatı və poeziyası. Müslim ibn əl-Valıd şeirinin bədii xüsusiyyətləri. Dibil əl-Xuzainin həyatı və poeziyası.

**Ənənələrə qayıdış dövrü poeziyasının yaranması səbəbləri.**

Ənənələrə qayıdış dövrü poeziyasında novator ünsürlər - qəsidənin beytləri arasında məntiqi əlaqənin güclənməsi, bədii üslubuna meyl və poeziyada çətin anlaşılan fikirlərin özünə yer etməsi. Ərəb ədəbiyyatşünaslığının şərhçilik qolunun yaranması.

Əbu Təmman klassisizm dövrünün görkəmli nümayəndəsi kimi. Əbu Təmmanın mədhiyyələri və tarixi olaylar. Babək hərəkatı Əbu Təmman şeirində. Əbu Təmmanın ərəb poetik irsinin toplanmasında rolu. «Həmasa» divanının toplanması, strukturu. Buhturi

ərəb klassisizminin görkəmli nümayəndəsi kimi. Ərəb ədəbiyyatşünaslığında müqayisəli tənqidin yaranması. Əbu Təmman və Buhturi ərəb tənqidçilərinin əsərlərində. Əbu Bəkr əs-Suli və əl-Amidinin Əbu Təmman və Buhturi poeziyasına münasibətləri.

Buhturinin dəriviyat şeirləri. Dəriviyat şeirlərinin yaranması və inkişafına ümumi bir baxış: cahiliyyət dövrünün köçəri ərəblərinin tərk edilmiş obalarının təsviri. Buhturinin «Siniyyə» qəsidəsində Mədain xarabələrinin təsviri. Buhturinin və Xəqaninin «Mədain xarabələri» qəsidələrinin müqayisəli təhlili.

**Klassisizm dövrünün digər görkəmli şairləri.**

İbn əl-Mutəzz görkəmli şair və ədəbi tənqidçi kimi. “Kitabul-Bədi” əsəri. Ərəb şeirinin poetik fiqurları ibn əl-Mutəzzin izahında. İbn əl-Mutəzz bədii elminin banisi kimi - bədi ünsürləri və məhasinul-kəlam.

İbn ər-Ruminin həyat və yaradıcılığı. İbn ər-Ruminin dini-fəlsəfi baxışları.

**Abbasilər dövrü ədəbiyyatının I və II mərhələlərində ərəb nəsri.**

Ərəb tərcüməçilik sənətinin inkişafı. Elmlərin inkişafı nəsrin təkamülünə təkan verən amil kimi. Elmi-fəlsəfi və tarixi-coğrafi əsərlərdən bədii nəsr nümunələrinə doğru. Abdulla ibn əl-Müqəffanın ərəb nəsrinin inkişafında rolu. «Kəlilə və Dimnə» dünya ədəbiyyatının nadir incisi kimi.

Cahizin həyatı və yaradıcılığı. Cahizin əsərləri. Cahizin yazı üslubu: istitrad, ət-talvin əs-sauti, ət-talvin əl-fikri, əl-vaqiiyyə.

Cahiz ədəbiyyat tənqidçisi kimi. Cahizin Quranın nəzmı ilə bağlı mülahizələri. Cahiz xətiblər və xütbə sənəti barədə. Cahizin «Kitəbul-buxəla» əsəri.

**Mütənəbbi klassik ərəb şeirinin banisi kimi.**

Mütənəbbinin dövrü, həyatı və şəxsiyyəti. Mütənəbbinin poeziyası. Şamiyyat, Seyfiyyat, Kafuriyyat şeirləri.

Mütənəbbi şeirində orijinal motivlər. Həcvvari mədhələr, məmduha olan eşqin izharı, məmduhun peyğəmbərə bənzədilməsi və s.

**Əbul-Əla əl-Məərri**

Əbul-Əla əl-Məərrinin dövrü, həyatı və şəxsiyyəti. Əbul-Əlanın şeir yaradıcılığı və «Lüzumiyyat» fəlsəfi divanı.

Əbul-Əlanın nəsr yaradıcılığı. «Risələtul-Ğufran»da esxatoloji təsəvvürlər.

**Abbasilər ədəbiyyatının III dövründə ərəb nəsri.**

Məqamə janrı ərəb bədii nəsrinin inkişafında ən yüksək mərhələ kimi. Görkəmli məqamə ustaları: Bədi əz-Zaman əl-Həmədani və əl-Həriri.

**Ərəb - ispan ədəbiyyatı**

Ərəb ispan ədəbiyyatının yaranması, təşəkkülü və inkişafı.

Ərəblərin İspaniyanı fəth etməsi və ərəb İspaniyasının tarixində valilər dövrü. Abbasilərin hakimiyyətə gəlməsi ilə İspaniyanın ərəb xilafətindən ayrılması və burada Əməvilər xilafətinin yaranması. Əbdür- Rəhman əd-Dəxilin həyatı və poeziyası.

Ərəb-İspan poeziyasında ənənəvilikdən novatorluğa doğru inkişaf Əndəlus ədəbiyyatının görkəmli nümayəndələri. İbn Hani Qərbin Mütənəbbisi kimi. İbn Zeydunun həyatı və poeziyası. Mötəmid ibn Əbbad, İbn Hamdis, İbn Xəfəcə və b. Ərəb-ispan şeirində forma yenilikləri. Müvəşşah, zəcəl. Müvəşşahın yaranması barədə mülahizələr.

İbn Tufeylin «Həyy ibn Yaqzan» əsərində həqiqət axtarışları və əsər qəhrəmanının mütləq varlığın dərkı yolunda cəhdləri.

İbn Həzmin «Tauqul-Haməmə» əsəri sevgi barəsində traktat kimi. Əsərdə ərəb İspaniyasının ictimai durumu və məişəti ilə bağlı hadisələrin əksi.

Ərəb sufi ədəbiyyatının yaranması və inkişafı. Ərəb sufizminin qaynaqları. Cahiliyyət dövründə ərəb cəmiyyətində zöhd. Təsəvvüfün İslam daxilində yetişmiş bir cərəyan olmaqla həm də yəhudilik, xristianlıq, qnostisizm, buddizm və digər dini-fəlsfi cərəyanlarla bağlılığı.

**Müasir ərəb ədəbiyyatı barədə ümumi məlumat.**

Müxtəlif ərəb ölkələrində ədəbiyyatın inkişaf xüsusiyyətləri. Maarifçilik ədəbiyyatı. Ərəb ölkələrində maarifçilik hərəkatının yaranması və onun görkəmli nümayəndələri: Məhəmməd Əbduh, Qasım Əmin, Ədib İshaq, Mustafa Kamil və b.

Nəhda hərəkatı ərəb maarifçiliyinin yetirməsi kimi. Misir, Suriya və Livanda mədəni dirçəliş. Tərcüməçilik. Rifaa ət-Tahtəvinin bu sahədə xidmətləri. Mətbuat və publisistikanın inkişafı. Tarixi roman janrının yaranması və inkişafı. Circi Zeydan, Cəmil Nəxlə əl-Mudavvar, Səlim Bustani, Fərəh Antun və b.

**Müasir Misir ədəbiyyatı.**

Misir poeziyasında köhnəliklə yeniliyin mübarizəsi. Hafiz İbrahim, Əhməd Şövqi, Mahmud Abbas Əqqad, İbrahim əl-Mazini və b.

**Məhcər ərəb ədəbiyyatı**

Məhcər ədəbiyyatı ərəb ədəbiyyatı tarixində yeni mərhələ kimi. "Qələmlər" cəmiyyəti. Mühacirətdə yaranmış ərəb ədəbiyyatının səciyyəvi cəhətləri: Ənənələrə bağlılıq və modernist istiqamət.

Məhcər ədəbiyyatının görkəmli nümayəndələri: Mixail Nueyme, Cübran Xəlil Cübran və Əmin ər-Reyhani.

Məhcər ədəbiyyatının Azərbaycanda tədqiqi: Aida İmanquliyeva.

**İraq ədəbiyyatı**

İraq ədəbiyyatının yaranması və inkişafı. Müasir İraq poeziyası. Məruf ər-Rusafi və Cəmil Sidqi əz-Zəhavi. Müasir İraq poeziyasının Azərbaycanda tədqiqi: V.Cəfərov.

Müasir İraq nəsri. Edmon Səbri, Şakir Xusbak və b.

**Səudiyyə Ərəbistan ədəbiyyatı**

Səudiyyə Ərəbistanında ədəbiyyatın yaranması və inkişaf xüsusiyyətləri. Şeyx Məhəmməd Əbdül-Vəhhab, Məhəmməd ibn Əhməd, Əhməd ibn Müşərrəf və b. Səudiyyə şeirinin dirçəliş mərhələsi: Qazi Quseybi, Məhəmməd Sərur əs-Səbban.

Səudiyyə nəsri: novella və roman. Əbdül Qüddus əl-Ənsari. Tahir Səlam. Məhəmməd Uqeyl, Əhməd Rza Nuhi, Mahmud Alim əl-Əfqani və b.

**Tunis Əlcəzair və Mərakeş ədəbiyyatı.**

Tunisdə maarifçilik ədəbiyyatı. Saleh Suveys və «Əl-Heyfə və Siracul-leyl» əsəri.

Tunis poeziyası. Məhəmməd Şizli Xəznədar, Tahir Həddad, Əbul-Qasım Şəbbi. Fransız ekzistensializmi və Tunis ədəbiyyatı. Əlcəzair poeziyası: Məhəmməd əl-Ləkkani, Məhəmməd Səid əz-Zahiri, Əhməd Cuneyd əl-Məkki.

Əlcəzairdə novella və roman janrının yaranması və inkişafı. Əhməd Rza və «Məkkəli qız» romanı. Məhəmməd Mani, Əhməd Aşur, Vəttar və başqaları. Fransızdilli Əlcəzair ədəbiyyatı: Məhəmməd Dib, Malud Firon, İdris Şəron və b. Mərakeş ədəbiyyatının dirçəliş və inkişafı. Poeziya. Abdulla əl-Fasi. Məhəmməd əl-Hələui. Əbu Bəkr əl-Ləmtum və b. Mərakeş nəsri: Cəllab Mustafa, Məhəmməd əs-Səbbaq və b. Dramaturgiya: Məhəmməd Təncəvi. Məhəmməd bin Zeyan.

**Oman ədəbiyyatı.**

Oman nəsri: Abdulla ət-Tai, Səid Müzəffər, Məhəmməd əl-Qərməti, Əhməd Bilal, Yunis əl-Əxzumi.

Oman poeziyası.

Əbu Müslim əl-Bəhlani, «Təiyyə» qəsidəsi. Əbu Müslim əl-Kindi poeziyasında vətənpərvərlik motivləri.

Siyasi poeziya - Abdulla ət-Tai və Abdulla əl-Xəlili.

**Küveytdə mədəni dirçəliş və onun ədəbiyyata təsiri.**

Poeziyada mühafizəkar cərəyan - Xalid ibn Abdulla əl-Adsani, Abdulla Fərac, Zeynalabidin ibn Həsən, Məhəmməd Əhməd əl-Məşari, Abduləziz Səud əl-Babtin.

**Sudan ədəbiyyatı.**

Antiimperialist ruhlu poeziya. Yəhya əs-Sələvi.

Mədrasətul-Fəcr cərəyanı və «əl-Fəcr» jurnalı. Bu cərəyanın ideoloqu, yazıçı və tənqidçi M.Mehcubun klassisizmin və novatorluğun vəhdətindən ibarət yeni Sudan ədəbiyyatının yaranmasında rolu.

**Suriya, Livan və Fələstin ədəbiyyatı.**

XIX əsrə qədər hər üç ölkənin bir ərazi vahidini - Şamı bildirməsi. Şamda maarifçilik hərəkatı: Nasif əl-Yazıçı, İbrahim əl-Yazıçı, Süleyman əl-Bustani, Butrus əl-Bustani, İshaq Ədib, C.Zeydan, C.N. əl-Mudavvar və b. Nizar Qəbbanının həyatı və poeziyası. Mahmud Dərvişin həyatı və poeziyası.

**ƏDƏBİYYAT**

**Azərbaycan dilində**


1. Abbasov Fazil. Müasir Suriya romanı. Bakı, 2005.
2. Cəfərov V.A. Cəmil Sidqi Əz-Zəhavi. Bakı, 1984.
3. Cəfərov V.A. Müasir ərəb şerində siyasi lirika. Bakı, 1990, (M.Qəmbərova ilə birlikdə).
4. Cümşüdoğlu Nəsib. Füzulinin sənət və mərifət dünyası. Bakı, Tehran, 1997.
5. Əbu Bəkr əl-Valibi və onun «Əxbarul Məcnun və əşaruhu» əsəri. Tədqiqat, filoloji tərcümə, şərhlər və izahlar f.e.n. İ.Həmidovundur.Bakı 1990.
6. Ərəb filologiyası məsələləri. Bakı, 1973.
7. Ərəb filologiyası məsələləri. Bakı, 1984.
8. Əzizov E. IX əsr ərəb poeziyasında xürrəmilər hərəkatının əksi. Bakı, 2004.
9. Hacıyeva V. Səudiyyə Ərəbistanı ədəbiyyatında novella janrı. Bakı, 2004.
10. İmanquliyeva A. Cübran Xəlil Cübran. Bakı, 1975.
11. Kazımoğlu S. Cahizin ədəbi görüşləri. Bakı, 2005.
12. Qasımova A. Cahiliyyət ərəblərinin şair və xətiblərə münasibəti. Şərq filologiyası məsələləri. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı, 2005, s.11-31.
13. Qasımova A. Ərəb ədəbiyyatı (V–XIII əsrlər). Bakı, 2019-2023.
14. Qasımova A. X əsr ərəb-müsəlman intibahı. I və II məqalələr. Elmi araşdırmalar. AMEA Z.Bünyadov adına Şərqşünaslıq institutu, 2002, I-II, s.30-35, 2002 (III-IV), s.16-18.
15. Qasımova A. İslamın yaranması dövründə ərəb ədəbiyyatı (ərəb ədəbiyyatı kursuna dair metodik göstəriş). Bakı, BDU, 1998.
16. Qasımova A. Klassik ərəb ədəbiyyatına dair müntəxabat. - M.Mahmudov. Klassik ərəb ədəbiyyatı. Bakı, 2001, s.215-256.
17. Qəmbərov M. Hafiz İbrahimin poeziyası. Bakı, 1978.
18. Quliyeva M.H. Klassik Şərq poetikası. Bakı, 1991.
19. Mahmudov M.R. Ərəbcə yazmış azərbaycanlı ədib və şairlər. Bakı, 1983.
20. Mahmudov M.R. Xətib Təbrizi. Bakı, 1978.
21. Mahmudov M.R. Klassik ərəb ədəbiyyatı. Bakı, 2001.
22. Mahmudov M.R. Piyada... Təbrizdən Şamadək. Bakı, 1982.
23. Məmmədəliyev V.M. Ön söz. Quran. Bakı, 1991.
24. Mütəllimova Ç. Müasir dövr ərəb ədəbiyyatı *(dərslik)*. Bakı, Müəllim nəşriyyatı, 2021, 445 s.
25. Mütəllimova Ç. XIX -XX əsr ərəb ədəbiyyatı (dərslik). Bakı, Müəllim nəşriyyatı, 2021, 320 s.
26. Mütəllimova Ç. Klassik ərəb ədəbiyyatından mühazirələr (Folklor,Cahiliyyə və Əməvilər dövrü) (dərslik). Bakı,2022, Müəllim nəşriyyatı, 220 s.

27. Şərəfəddin Məhəmməd əl-Busiri. Qəsidətul-burda. Qəsidənin mətnini Azərbaycan dilinə orta əsr tərcüməsini nəşrə hazırlayan, müasir tərcümənin və tədqiqatın müəllifi Aynur Hüseynova. Bakı, 2005.

**Rus dilində**

28. Ализада Г.А. Египетская новелла. Москва, 1974.
29. Ализада Г.А. Махмуд Теймур. Москва, 1983.
30. Аль-Джахиз. Книга о скупых. Пер. и пред. Х.К.Баранова. Под ред. И.М. Фильштинского. М., 1963.
31. Амин ар-Рейхани. Избранное. Ленинград, 1968.
32. Арабская средневековая культура и литература. Сб. статей. М., 1978.
33. Бахшалиева К.Б. Книга песен Абул-Фараджа аль-Исфахани и классическая азербайджанская литература. Баку, 1998.
34. Беляев Е.А. Суфизм и суфийская литература. Избр. труды. III т. Москва, 1965.
35. Гамидов И. Ибн Кутайба Динавари. Жизнь и труды по шуубизму, адабу и критике поэзии. Баку, 1998.
36. Гибб Х.А.Р. Арабская литература. Классический период. М. 1960.
37. Долинина А.А. Очерки истории арабской литературы нового времени. Египет и Сирия. Публицистика. Москва, 1968.
38. Долинина А.А. Очерки истории арабской литературы нового времени. Египет и Сирия. Просветительский роман. Москва, 1973.
39. Зехтаби М.Т. Жизнь и творчество Абу Нуваса. (Диссертация на соискание ученой степени кандидата филологических наук). Баку, 1961.
40. Ибн аль-Мутазз. Китаб аль-бади. Изд. текста и пер. И.Ю. Крачковского – И.Ю.Крачковский. Избр. сочинения. Т.6. М.-Л. 1960.
41. Ибн Хазм. Ожерелье голубки. Москва, 1957.
42. Ибрагимов Н. Арабский народный роман. 1984.
43. Иманкулиева А.Н. «Ассоциация пера» и Михаил Нуайме. М., 1975.
44. Иманкулиева А.Н. Корифеи новоарабской литературы. Баку, 1991.
45. Калила и Димна. Пер. И.Ю.Крачковского и И.П.Кузьмина предисл. Е.Г.Бертельса. М. 1957.
46. Касумова А.Ş. Возникновение макаманного жанра в арабской литературе. Баку, 2006.
47. Кирпиченко В.Н. Современная египетская проза. 60-70 годы. Москва, 1986.
48. Крачковский И.Ю. Избранные сочинения. Т.I-VI.
49. Крымский А.Е. История арабов и арабской литературы, светской и духовной. I-III тома. Москва, 1914.

50. Крымский А.Е. История новой арабской литературы. Москва, 1971.
51. Крымский А.С. Арабская поэзия в очерках и образцах. М. 1906.
52. Куделин А.В. Классическая арабо-испанская поэзия. М. 1973.
53. Куделин А.В. Средневековая арабская поэтика.
54. Литература Африки. Москва, 1979.
55. Литература Востока в новейшее время. Москва, 1977.
56. Литература Востока в новое время. Москва, 1975.
57. Мец А. Мусульманский Ренессанс. М., 1966.
58. Нагиб Махфуз. Романы. Москва, 1990.
59. Очерки истории арабской культуры V-XV вв. Москва, 1982.
60. Поэты Алжира. Москва, 1965.

**İngilis dilində**

61. Allen, Roger (ed.). Arabic Literature in the Post-Classical Period. Cambridge: Cambridge University Press, 2006.
62. Allen, Roger. An Introduction to Arabic Literature. Cambridge: Cambridge University Press, 2000.
63. Allen, Roger. Arabic Literature: An Introduction. Cambridge: Cambridge University Press, 2000.
64. Allen, Roger. Contemporary Arabic Fiction: Innovation from 1945 to the 1980s. Syracuse: Syracuse University Press, 1995.
65. Allen, Roger. The Arabic Novel: An Historical and Critical Introduction. Syracuse: Syracuse University Press, 1995.
66. Menocal, Maria Rosa. The Literature of Al-Andalus. Cambridge: Cambridge University Press, 2000.
67. Starkey, Paul. Modern Arabic Literature. Edinburgh: Edinburgh University Press, 2006.
68. The Cambridge History of Arabic Literature. Cambridge: Cambridge University Press, 1983–2006.
69. Van Gelder, Geert Jan. Classical Arabic Literature. New York: New York University Press, 2013.

**Ərəb dilində**

71. ابن خلدون، عبد الرحمن بن محمد .المقدمة .القاهرة: دار نهضة مصر، 2004
72. ابن قتيبة، عبد الله بن مسلم .الشعر والشعراء .تحقيق: أحمد محمد شاكر. القاهرة: دار الحديث، 2005 .

73. أبو الفرج الأصفهاني، علي بن الحسين .كتاب الأغاني .تحقيق: إحسان عباس وآخرون. بيروت: دار صادر، 1986، 25 مجلدًا .

74. إحسان عباس. اتجاهات الشعر العربي المعاصر. بيروت، دار الشروق، 1978

75. إحسان عباس. تاريخ الأدب الأندلسي. بيروت، دار الثقافة، 1960 .

76. أحمد أمين .ضحى الإسلام .القاهرة: لجنة التأليف والترجمة والنشر، 1952

77. أحمد أمين .ظهر الإسلام .القاهرة: لجنة التأليف والترجمة والنشر، 1956

78. أحمد أمين .فجر الإسلام .القاهرة: لجنة التأليف والترجمة والنشر، 1950.

79. أحمد حسن الزيات. تاريخ الأدب العربي. القاهرة، دار نهضة مصر، 1957 .

80. الجاحظ. البيان والتبيين. القاهرة، دار الفكر، 1968 .

81. الجاحظ. الحيوان. بيروت، دار الكتب العلمية، 2003 .

82. الجمحي، محمد بن سلام .طبقات فحول الشعراء .تحقيق: محمود محمد شاكر. القاهرة: دار المدني، 1974 بيروت، 1998 .

83. الجندي، أنور .الكتاب المعاصرون . القاهرة: دار الفكر العربي، 1955 .

84. الجندي، أنور .معالم الأدب العربي المعاصر .القاهرة: دار الفكر العربي، 1964 .

85. حسين مؤنس. فجر الأندلس. القاهرة، دار المعارف، 1959 .

86. حنا الفاخوري. تاريخ الأدب العربي. بيروت، دار الجيل، 1986 .

87. شوقي ضيف. تاريخ الأدب العربي. القاهرة، دار المعارف، 1960–1990 .

88. طه حسين. في الأدب الجاهلي. القاهرة، دار المعارف، 1926 .

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**5718.01 – "Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı)" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında ixtisas imtahanı sualları:**

1. Ərəb ədəbiyyatının tarixi inkişaf mərhələləri və xüsusiyyətləri
2. Qədim ərəb ədəbiyyatının
3. Qədim ərəb xalq dastanları
4. Müəlləqələr və onların bədii xüsusiyyətləri
5. Məşhur müəllaqa müəllifləri və onların yaradıcılığı
6. Cahiliyyət poeziyasının toplanması və həqiqiliyi problemi
7. Qədim ərəb ədəbiyyatında mifoloji və dini motivlər
8. Qurani- Kərimin nazil olması, dil, üslub xüsusiyyətləri və onun ərəb ədəbiyyatına təsiri
9. Qurani-Kərimdə və hədislərdə şairlərə və söz sənətinə münasibət
10. Erkən İslam poeziyasında ideoloji transformasiya
11. Həssan ibn Sabit və onun yaradıcılığında dini poetika
12. Kəb ibn Zuheyr və onun poeziyasında keçid motivləri
13. Xütbə janrının ədəbi və siyasi funksiyası
14. "Nəhcül-bəlağa"nın ritorik sistemi və üslubi xüsusiyyətləri
15. Əməvilər dövründə ərəb nəsrinin inkişafı

16. İlkin islam dövründə xütbə. Məhəmməd peyğəmbərin “Vida xütbəsi”
17. Əməvilər dövründə xütbə sənəti
18. İslamın yaranması dövründə katiblik sənəti. Quran katibləri.
19. Əməvilər dövründə katiblik sənəti. Əbdül-Həmid əl-Katib.
20. Nəqaid şeiri və onun xüsusiyyətləri
21. Fərəzdək, Cərir və Əxtal yaradıcılığının müqayisəli təhlili
22. Ərəb ədəbiyyatında üzri və hadari qəzəl janrı və onların poetik fərqləri
23. Üzri poeziyasında məhəbbət motivləri . Leyli və Məcnun ənənəsinin formalaşması
24. Qeys ibn Mülavvah və «Leyli və Məcnun» poemaları.
25. Bəşşar ibn Burd poeziyasında yenilikçi tendensiyalar
26. Ərəb ədəbiyyatında zuhdiyyə şeiri və Əbul-Ətahiyə
27. Ərəb şeirində xəmriyyə janrı və onun görkəmli nümayəndəsi Əbu Nuvasın həyat və yaradıcılığı
28. Ərəb ədəbiyyatında şərhçilik elminin yaranması və görkəmli simaları
29. Ərəb ədəbiyyatında müqayisəli tənqidin yaranması və görkəmli simaları.
30. Əbu Təmman və “Həmasa” divanı
31. Buhturi və klassik poetika
32. Ərəb klassik poetikasında bədii elmi
33. İbn əl-Mutəzz və poetik nəzəriyyə
34. İbn ər-Ruminin həyatı və yaradıcılığı.
35. Abbasilər dövründə ərəb nəsrinin inkişaf mərhələləri.
36. Abbasilər dövründə tərcüməçilik hərəkatı və ədəbiyyata təsiri
37. İbn əl-Müqəffə və “Kəlilə və Dimnə” əsəri.
38. Cahizin həyat və yaradıcılığı.
39. Cahizin «Kitəbul-buxəla» əsəri və satirik nəsr
40. Əl-Mütənəbbi və klassik ərəb poeziyası
41. Əl-Mütənəbbi poeziyasında şamiyyat, seyfiyyat və kafuriyyat şeirləri və bu şeirlərdə orijinal motivlər
42. Əbul-Əla əl-Məərrinin həyatı və yaradıcılığı
43. Əbul-Əla əl-Məərrinin “Risələtul-Ğufran” əsəri və esxatoloji motivlər

44. Ərəb ədəbiyyatında məqamə janrı və onun görkəmli nümayəndələri: Bədi əz-Zaman əl-Həmədani və əl-Həriri
45. Ərəb -ispan ədəbiyyatının yaranması, təşəkkülü və inkişafı
46. Əndəlus ədəbiyyatının görkəmli nümayəndələri
47. Əndəlus poeziyasında yeniliklər: müvəşşah, zəcəl janrları
48. Ərəb sufi ədəbiyyatının yaranması, qaynaqları və inkişafı
49. Ərəb ədəbiyyatında maarifçilik hərəkatı və onun görkəmli nümayəndələri
50. Ərəb maarifçiliyi və nəhda hərəkatı
51. Rifaa ət-Tahtəvi və tərcüməçilik fəaliyyəti
52. Ərəb ədəbiyyatında tarixi roman janrının yaranması
53. Məhcər ədəbiyyatının yaranması və onun görkəmli nümayəndələri
54. Məhcər ədəbiyyatının görkəmli nümayəndələri: Mixail Nueyme, Cübran Xəlil Cübran və Əmin ər-Reyhani.
55. Müasir Misir ədəbiyyatı və görkəmli nümayəndələri
56. Misir poeziyasında köhnəliklə yeniliyin mübarizəsi. Hafiz İbrahim, Əhməd Şövqi, Mahmud Abbas
57. İraq ədəbiyyatının yaranması, inkişaf mərhələləri və müasir İraq poeziyası (Məruf ər-Rusafi və Cəmil Sidqi əz-Zəhavi yaradıcılığı)
58. Müasir İraq nəsrinin xüsusiyyətləri və inkişafı: Edmon Səbri, Şakir Xusbak və b.
59. Səudiyyə Ərəbistanı ədəbiyyatının yaranması və xüsusiyyətləri.
60. Səudiyyə şeirinin dirçəliş mərhələsi: Qazi Quseybi, Məhəmməd Sərur əs-Səbban.
61. Məğrib ölkələri ədəbiyyatının inkişaf xüsusiyyətləri
62. Suriya, Livan və Fələstin ədəbiyyatında əsas istiqamətlər
63. Tunisdə maarifçilik ədəbiyyatı. Saleh Suveys və «Əl-Heyfə və Siracul-leyl» əsəri
64. Əlcəzairdə novella və roman janrının yaranması və inkişafı. Əhməd Rza və «Məkkəli qız» romanı
65. Fransızdilli Əlcəzair ədəbiyyatı: Məhəmməd Dib, Malud Firon, İdris Şəron və b.
66. Sudan ədəbiyyatı və antiimperialist poeziya:Yəhya əs-Sələvi yaradıcılığı)
67. Müasir Oman ədəbiyyatı və onun görkəmli simaları
68. Oman yazıçısı Coxa əl-Hərsi **yaradıcılığında qadın mövzusu və müasir Oman cəmiyyətinin təsviri**

69. Səudiyyə Ərəbistanı ədəbiyyatının inkişaf xüsusiyyətləri və tanınmış simaları
70. Məğrib ölkələri ədəbiyyatının inkişaf xüsusiyyətləri və tanınmış simaları
71. Nizar Qəbbani poeziyasında sevgi və siyasət
72. Mahmud Dərviş poeziyasında müqavimət ideyası
73. Məğrib ədəbiyyatında postkolonial diskurs
74. Sudan ədəbiyyatında antiimperialist ideologiya
75. Sudan ədəbiyyatında mədrasətul-fəcr cərəyanı və «əl-Fəcr» jurnalı